

# İSRAİLDƏ AZƏRBAYCAN SƏFİRLİYİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

Hakimiyyet.info.az xəbər verir ki, martın 29-da İsraildə Azərbaycan səfirliyinin rəsmi açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycan və İsrailin xarici işlər nazirləri Ceyhun Bayramov və Eli Kohen, həmçinin hər iki ölkənin parlament, ictimaiyyət və incəsənət nümayəndələri iştirak ediblər.

Mərasim hər iki ölkənin Dövlət himnlərinin səslənməsi ilə başlayıb.

Tədbirdə çıxış edən nazir Ceyhun Bayramov səfirliyin açılışını iki ölkə münasibətlərinin inkişafına yeni təkan verəcəyini bildirib. Diplomat Azərbaycan-İsrail əməkdaşlığının müxtəlif istiqamətlərindən danışıb, perspektiv imkanları qeyd edib. O deyib ki, Azərbaycanın yəhudi icması cəmiyyətimizin inkişafına öz töhfəsini verir. Nazir səfirliyin açılışından sonra İsraildəki Azərbaycan diasporunun fəaliyyətinin də aktivləşəcəyinə əmin olduğunu söyləyib.

Mərasimi tarixi hadisə adlandıran nazir Eli Kohen 30 illik əməkdaşlıq müddətində səfirliyin açılışının strateji əlaqələrin dərinliyindən xəbər verdiyini vurğulayıb. Azərbaycanı İsrailin strateji tərəfdaşı adlandıran nazir iki ölkənin müxtəlif sahələrdə sıx əməkdaşlıq etdiyini bildirib. O, münasibətlərimizin bundan sonra daha da dərinləşəcəyinə əminliyini ifadə edib.

Sonra nazirlər səfirliyin adı olan lövhəni təqdim ediblər.

Mərasim Azərbaycan incəsənət xadimlərinin konsert proqramı ilə davam edib.


HAKİMİYYƏTİN MƏNBƏYİ XALQDIR www.hakimiyyet.info.az

HAKİMİYYƏT

ƏZIZ OXUCULARIMIZ!

”HAKİMİYYƏT” QƏZETİNƏ ”MƏTBUATYAYIMI” ASC-NİN KÖŞKLƏRİNDƏ VƏ POÇT ŞÖBƏLƏRİNDƏ ABUNƏ OLMAĞA TƏLƏSİN!

AYLIQ - həftədə 1 dəfə olmaqla - 1 MANAT 40 QƏPİK

3 AYLIQ - 4 MANAT 20 QƏPİK

6 AYLIQ - 8 MANAT 40 QƏPİK

1 İLLİK ABUNƏ QİYMƏTİ - 16 MANAT 80 QƏPİKDİR.

ABUNƏ OLUN Kİ, DAİMA YANINIZDA OLAQ!


# QALMAQAL, YOXSA FRAYERLİK - RAZİ NURULLAYEVİ İNCİDƏN NƏDİR?

Azərbaycan gündəmində sosial şəbəkələr vasitəsiylə istər daxildən, istərsə də xaricdən ölkədə baş verən ən xırda hadisəni böyüdüb qalmaqala çevirmək istəyən bəzi başlar-yəni çaşbaşlar, alabaşlar, qarabaşlar, keçəlbaşlar bəzən kol dibinə başını soxan toyuqlar kimi arxalarının harada qalmasını unudurlar. Bu unutqanlıq yaddaş zəifliyi, şüur geriliyi, yoxsa şizofreniya əlamətidir, deyə bilmərəm. Ancaq bu tiplərdən istifadə edib xalqda çaşqınlıq yaratmaqla ölkədə müxtəlif səpkili qalmaqallarla ictimai-siyasi sabitliyi pozmaq, ”ara xəlvət tülkü bəylik iddiasında” olanlardır. Düşünülmüş, bilərəkdən ”el-oba cəfakeşi”, ”xalqa canıyanan” obrazı yaradıb məqsədli şəkildə frayerlik edənlər dövlətin bələlərinin əlində biçarə qalmayacaqlarını unudurlar. Hansısa ”fond”ların, fəndgirlərin əlində maddiyata görə alətə çevrilənlər sonradan əski parçası kimi işlənib tullantıya çevrilirlər. Bu dünən də beləydi, bu gün də belədir, sabah da belə olacaq. Ancaq dəyişən miqdardır. Dünən beş nəfər idisə, Azərbaycandakı inkişaf və sabitliyi görəndə bu say artmağa başlayır. Məsələn, mətbuatda elələri var ki, çayxana söhbətləri ilə gündəmə gəlməyə can atır. Onu peşəkarlıq, informasiya dəqiqliyi maraqlandırmır. Bu onun üçün özünətəhqir sayılır. Bəziləri pozuq mətbuatbazları özünə aid çərçivəyə dəvət edən media qurumlarını, MEDİA İnkişaf Agentliyini belə hədəfə alıb ona qarşı alternativ zadlar yaratmağa çalışırlar.

Kütlə, kütlə olaraq hər zaman yayılan saxta məlumatların arxasınca getməyə maraqlıdır. Ancaq bu kütlədir. Bəs ziyalı təbəqə? Millət vəkiii? Bunlara necə ad verəsən? Biri frayerlik xatirinə deyir ki, mən heç özüm də xalqın səsiylə seçilməmişəm. Bəs sən orada nə qələt edirsən? Cavab birdir: Səni ora alət kimi gətirblər ki, lazım olanda həmin cümləni deyə biləsən. Və yaxud digər bir millət vəkili üzünü hakimiyyət orqanlarına tutub deyir ki, sizə yalvarıram, insanlara belə haqsızlıq etməyin, camaatın vəziyyəti ağırdır. Düz, əhsən, bəs insanların vəziyyətini ağırlaşdıran, cərimələri artıran, cəzaları daha da sərtləşdirən qanunların qəbulu zamanı yatmışdın, yoxsa Milli Məclisin ayaq yolunda idin? Yaxud son günlər sosial şəbəkənin imkanlarından istifadə edərək Bakının dənizkənarı bulvarında müsahibə verməsinə etiraz edən bulvar rəhbərliyinə qarşı bir küy qaldırıb haray qoparır ki, adam təəccüblənməyə bilmir. Həmkarının dediyi kimi, necə seçildiyini bilməyən millət vəkili Razi Nurullayevi incidən nədir? Bulvar rəhbərliyi, yoxsa bulvarda müsahibə verə bilməməsi? Əcəba, əgər birincidirsə, onda bilmək lazımdır ki, bulvar rəhbərliyi ilə bu deputatın hansı bölüşə bilmədiyi haqq-hesab var. Yox, əgər ikincidirsə, ay deputat qağa, bulvarda müsahibə vermə, 200-300 metr aralıda-”tarqovıda” ver. Təki ver, istəyirsənsə vermək müsahibə. Əslində, insanların ailəsiylə, yaxınlarıyla gəzib istirahət etmək istədiyi yerdə icazəsiz çəkiliş etmək özü də bir mədəniyyətsizlikdir. Buna görə harayhəşir qoparmaq, şüvənlik salmaq görəsən Razi Nurullayevin harasına yaraşır. Bu hay-harayı görənlər düşünür ki, aman Allah, millətə özünü kim necə istəyir, elə də sırımağa çalışır. Bir də ki, ay Razi Nurullayev, bir dəfə də yaşadığın evindən, bağından, bağçandan müsahibə ver, nə olar ki?



***Füzuli Əfqanoğlu,***
***”HAKİMİYYƏT” qəzetinin baş redaktoru***

# ABŞ SƏFİRLİYİ 2023-2025 GIPA JURNALİSTİKA ÜZRƏ MAGİSTR PROQRAMINI ELAN EDİR

ABŞ Səfirliyi Gürcüstanın İctimai Əlaqələr İnstitutunun (GİPA) Azərbaycan vətəndaşları olan namizədləri arasında Qafqaz Jurnalistika və Media İdarəçiliyi Məktəbinin (QJMİM) jurnalistika və media əlaqələri üzrə magistr proqramına tələbə qəbulu elan edir. Proqram üzrə dərslər ABŞ və Avropa Universitetlərindən səfər edən müəllimlər və qərb təhsilli gürcü professorlar tərəfindən aparılacaq. Bu proqram ABŞ-ın Dövlət Departamenti tərəfindən maliyyələşdirilir. Ümumilikdə proqramın məqsədi Qafqazda medianın gücləndirilməsidir.

Beş nəfərə qədər azərbaycanlı namizəd 2023-cü ilin sentyabrından 2025-cü ilin iyununa qədər dörd semestr ərzində təklif olunacaq proqram üçün seçilməsi gözlənilir.

Müsabiqəyə jurnalistika, media, kommunikasiya, qrafika, fotojurnalistika, məzmunun işlənib hazırlanması və digər əlaqəli sahələrlə maraqlanan tələbələr müraciət edə bilər. Tələbələr 2023-cü ilin sentyabr ayından 2024-cü ilin dekabr ayına kimi Tbilisi şəhərində GİPA-da oxuyacaqlar. 2025-cü ilin may ayında isə onlar diplom işlərini müdafiə etmək üçün yenidən instituta qayıdacaq. GİPA-da təhsil aldıqları zaman tələbələrin kompyuter, radio və video avadanlıqlardan, internet və zəngin kitabxanadan istifadə etmək imkanları olacaq. Proqram çərçivəsində tələbələr Brosse Street Journal adlanan jurnalın həm çap, həm də internet versiyasını hazırlayacaq və GİPA FM radiosu vasitəsilə xəbər proqramlarını yayımlayacaq. GIPA tələbələri Erasmus+ mübadilə proqramlarında iştirak etmək və müxtəlif Avropa Universitetlərində bir semestr təhsili üçün maliyyə almaq hüququna malikdirlər.

Çap və teleradio yayımı mediası nümayəndələri üçün nəzərdə tutulan tədris planı praktiki yanaşma və əldə edilmiş təcrübə prinsipləri üzərində qurulub və faktlara əsaslanan peşəkar xəbərin çatdırılmasını nəzərdə tutur. Burada, həmçinin idarəçilik üsullarına, iqtisadiyyat və hüquq fənlərinin tədrisinə də diqqət ayrılacaq.

Müsabiqədən keçmək üçün namizədlərdən yüksək səviyyədə ingilis dili biliyi tələb olunur.

ABŞ-ın Bakıdakı səfirliyi ehtiyacı olan tələbələrin Gürcüstanda oxuduğu müddətdə təhsil və yaşayış xərclərini maliyyələşdirəcək.

Qəbul üçün prosedur: Azərbaycan-Amerika qəbul komissiyası üzvlərinin Bakıda keçirəcəyi müsahibədən uğurla keçmək.

Sənədlərin qəbulu üçün son tarix 30 aprel 2023-cü ildir.

Əlavə məlumat əldə etmək və ya sənədlərin göndərilməsi üçün

Mehdi Hüseynquluyev, proqramın yerli koordinatoru (elektron ünvan: HuseynguliyevMM@state.gov) ilə əlaqə saxlayın.

Nəzərə alın ki, e-poçtunuzdakı mövzu sətrində yazılmalıdır: GIPA-2023 Documents

GIPA proqramına tələb olunan sənədlərin siyahısı:

1. Ərizə forması
2. Tövsiyə məktubları
3. Təhsil məqsədləri haqqında bəyanat
4. Diplomların surəti*
5. Diplom əlavələri
6. Şəxsiyyət vəsiqəsinin və ya pasportun surəti

* Qeyd: 2022-ci ildə universiteti bitirmiş, lakin diplomlarını vaxtında ala bilməyən məzunlar universiteti bitirdiklərini təsdiq edən müvəqqəti sənəd/arayış təqdim edib proqramda iştirak edə bilərlər. Onların 1 avqust 2023-cü il tarixinədək diplomlarını qəbul komissiyasına təqdim etməsi şərtdir.

Əlavə məlumat və GİPA Jurnalistika üzrə magistr proqramının ərizə formasını əldə etmək üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz:

https://drive.google.com/file/d/1LbG4xgC2aNNrv1axgjy7O-nvF4NKb9h/view?usp=sharing

https://drive.google.com/file/d/1LbG4xgC2aNNrv1axgjy7O-nvF4NKb9h/view?usp=sharing

Əlavə məlumat:

Əsası 1994-cü ildə qoyulan Gürcüstanın İctimai Əlaqələr İnstitutu özəl tədris ocağı olmaqla Qafqazda demokratik və bazar islahatlarına dəstək olmaq üçün yüksək ixtisaslı ictimai qulluqçular və jurnalistlər yetişdirən institutdur.

Qafqaz Jurnalistika və Media İdarəçiliyi Məktəbi 2001-ci ildə jurnalistika və media idarəçiliyi sahəsi üzrə tədris və təlim proqramları vasitəsilə Qafqazda müstəqil medianın inkişafını dəstəkləmək məqsədilə yaradılıb. İnstitutun prinsiplərinə əsasən dəqiq və qərəzsiz xəbərin çatdırılması ənənəsində təlim görmüş jurnalistlər işlədikləri yerdə jurnalistikanın səviyyəsini qaldırır, dəqiq məlumat verməklə və peşə standartlarını yüksəkdə tutmaqla cəmiyyətə xidmət göstərir.

İnstitutun açıldığı vaxtdan bəri ingilisdilli regional proqramı bitirərək 200-ə yaxın məzun jurnalistika və media əlaqələri üzrə magistr dərəcəsi əldə etmişdir. İnstitutun Azərbaycandan olan məzunları yerli media sahəsində lider vəzifələrdə çalışırlar. Onların 85% hazırda müxtəlif sahələrdə çalışır. Bizim məzunlar hazırda fəaliyyət göstərdikləri televiziya, radio və qəzetlərdə dəqiqlik, qərəzsizlik, müstəqillik kimi prinsipləri ilə tanınmış jurnalistlərdir.

Məzunlarımızın ən çox işlədikləri media qurumları BBC, Bloomberg, Turan, APA, 1News və Report informasiya agentlikləri, CBC, VOA və bir neçə müxtəlif mətbuat orqanları və təşkilatlardır.


***Təsisçi:*** Füzuli İsmayılov və redaksiyanın jurnalist kollektivi

***İdeya rəhbəri:***
***Loğman Rəşidzadə***

***Baş redaktor:*** Füzuli Əfqanoğlu

***Redaktor:*** Şəfi Əhmədov

***Məsul əməkdaşlar:***
Telman Bağırov,
Elvin İsmayılzadə,
Mehriban İsmayılzadə,
Dəyanət Kərimov

***Bank rekvizitlərimiz:***
Kapital Bank ASC-nin
Nəsimi rayon filialı
“Hakimiyyət” qəzeti
VÖEN 1400875811
Hesab №
AZ67AIIB40060019440409430111

Qəzet 1994-cü ildə Mətbuat və İnformasiya Nazirliyində rəsmi qeydiyyata alınaraq, 173-saylı şəhadətnamə ilə fəaliyyət göstərir

Qəzet redaksiyanın “Jalə” kompüter mərkəzində yığılaraq “Son dəqiqə” mətbəəsində çap olunub.

Tiraj: 1550



***Ünvan:*** Bakı, Azadlıq pr. 161 B

Telefon: (050) 680-99-76
E-mail: *hakimiyyet@gmail.com*
*hakimiyyet.tv@gmail.com*

*Bizi sosial şəbəkələrdə izləyin:*
*Facebookda: Hakimiyyət qəzeti,*
*İnstaqramda: Hakimiyyət Qəzeti*
*Youtube-da: Hakimiyyet TV*
*Tvitterdə: HakimiyyetC*


# ÖLKƏYƏ ÇOXLU SAYDA KÖHNƏ AVTOMOBİLLƏR GƏTİRİLİR



Nazirlər Kabineti tərəfindən yaşı 10 ildən çox olan minik avtomobillərinin Azərbaycan ərazisinə gətirilməsinin məhdudlaşdırılması ilə bağlı qərar, sözsüz ki, həm avtomobil parkının köhnəlməsinin qarşısının alınmasına, həm də atmosfer havasına mənfi təsirlərin azalmasına səbəb olacaq. Müəyyən müddətdən sonra bu qərar atmosfer havasının keyfiyyətində müsbət dəyişikliklərə gətirib çıxaracaq.

Bunu Trend-ə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İdarə rəisi Nazim Mahmudov deyib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İdarə rəisi Nazim Mahmudov bildirib ki, atmosferə atılan tullantıların böyük bir hissəsi nəqliyyat vasitələrinin payına düşdüyü üçün bu sahə üzrə daha mütərəqqi metodların tətbiqi, təbiətə dost nəqliyyat vasitələri təşviq edilməlidir.

”Elektromobillərin, hibrid nəqliyyat vasitələrinin, havanı daha az çirkləndirən tullantısız və ya az tullantılı avtomobillərin ölkəyə gətirilməsinin təşviqi, sıxılmış qazla işləyən avtomobillərin sayının artırılması, dizel yanacağı ilə işləyən nəqliyyat vasitələrinin minimuma endirilməsi, mühərriki kiçik həcmli avtomobillərə üstünlük verilməsi günümüzün ən aktual məsələlərindəndir.”

N. Mahmudov qeyd edib ki, ölkəmizə çoxlu sayda xaricdə istehsal olunmuş köhnə avtomobillər gətirilir ki, onların əksəriyyəti standartlardan da aşağı parametrlərə malikdir və həmin avtomobillər məhz o ölkələrdən gəlir ki, orada ən yüksək standartlar tətbiq edilir.

”Deməli, bu nəqliyyat vasitələrinin texniki göstəriciləri standartlara cavab vermədiyindən onların böyük şəhərlərdə istismarına qanunla yol verilmir. Sahibləri isə bu avtomobilləri ən yaxşı halda satmaqla öz ölkələrində ekoloji problemlərin həllinə nail olmağa çalışırlar.

Sözügedən qərar digər ölkələrdə istifadəsi məhdudlaşdırılan avtomobillərin ölkəmizə axınının, eləcə də, atmosfer havasının çirklənməsinin qarşısını alacaq”.

N. Mahmudovun fikrincə, hazırki dövrdə ola bilsin ki, bu qərarın nəticələri o qədər də hiss olunmasın, lakin müəyyən vaxt keçdikdən sonra bu addımın atmosfer havasının keyfiyyətində müsbət dəyişikliklərə səbəb olacağını müşahidə edəcəyik.

# ARTİLLERİYA BÖLMƏLƏRİNDƏ DÖYÜŞ TƏLİMİ

Hakimiyyet.info.az xəbər verir ki, Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunun artilleriya bölmələri ilə döyüş atışlı taktiki təlim keçirilib.

Təlimdə qısa müddət ərzində yerdəyişmə edərək atəş mövqelərinin tutulması, minaatan və artilleriya qurğularının döyüş vəziyyətinə gətirilməsi



üzrə fəaliyyətlər məşq etdirilib.

Praktiki atışların icrası zamanı təyin edilmiş hədəflər yüksək dəqiqliklə məhv edilib və qarşıya qoyulan tapşırıqlar uğurla icra olunub.

Təlimin keçirilməsində əsas məqsəd atəş vasitələrindən düzgün istifadə etməklə tapşırıqların vaxtında və dəqiq icra edilməsi üçün şəxsi heyətin praktiki vərdişlərinin artırılması, eləcə də komandir heyətinin bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsidir.

# "MEDİALAB" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN TƏLƏBƏLƏRİ ÜÇÜN İNFOSESSİYA KEÇİRİLİB





Martın 29-da Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə ”MEDİAlab” layihəsi çərçivəsində ali təhsil müəssisələrinin tələbələri üçün infosessiya keçirilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bildirib ki, bu layihə media sahəsində innovasiya və inkişaf yönümlü fəaliyyətin davamlılığının təmin edilməsi, təhsil prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasının dəstəklənməsi və gənclərin bacarıqlarının inkişafında müstəsna rol oynayacaqdır.

Tədbirin davamında MEDİA Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova media sahəsində gənc və peşəkar mütəxəssislərin hazırlanması və tendensiyalara uyğun rəqəmsal media bacarıqlarının inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Sonra MEDİA Agentliyinin nümayəndəsi Aytən Babayeva ”MEDİAlab” layihəsinin təqdimatını edərək, layihənin əsasən iki komponentdən - maarifləndirmə və bacarıqların inkişafından ibarət olacağını bildirib.

MEDİA Agentliyinin nümayəndəsi Aynur Zeynallı isə layihə çərçivəsində keçirilən sorğunun nəticələri və bir illik fəaliyyət planı haqqında məlumat verərək, növbəti mərhələdə müxtəlif ardıcıl inkişaf proqramlarının təşkil olunacağını vurğulayıb.

Tədbirin ikinci hissəsində Azərbaycan Televiziyasının ”Xəbərlər” proqramının aparıcısı, telejurnalist Ruslan Həsənov tərəfindən ”Newslab” - yaradıcı düşünmə, məzmun istehsalı və xəbər hazırlanması ilə bağlı bacarıqların inkişafı vörkşopu keçirilib. İnteraktiv müzakirə formatında keçirilən sessiyada Ruslan Həsənov iştirakçıları maraqlandıran sualları cavablandırıb, onlara praktik tapşırıqlar verib.

”MEDİAlab” layihəsinin əsas məqsədi texnoloji transformasiya zəncirinin əsas halqalarından olan insan resurslarının inkişafı üçün müvafiq sahədə kadr potensialının artırılması, media subyektləri və ali təhsil müəssisələri arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığın genişləndirilməsinə dəstək göstərilməsi, gənclərə rəqəmsal media bacarıqlarının təkmilləşdirilməsi üçün əlverişli ekosistemin yaradılmasıdır.